İnsan hüquqlarının müdafiəsi beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilir

İnsan hüquq və azadlıqlarının təmin olunması sahəsində beynəlxalq prinsiplər Azərbaycanın milli qanunvericiliyində öz əksini tapmışdır. Lakin insan hüquqlarının müdafiəsinin daha da təkmilləşdirilməsinə, beynəlxalq norma və standartlara uyğun təşkilinə ehtiyac duyulurdu. Məhz bu baxımdan demokratik- hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması şəraitində insan hüquq və azadlıqlarının təminatı mexanizmində insan hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı vacib yer tutur və əsas vasitə kimi çıxış edir.



Avropa Şurasına qəbul olunarkən Azərbaycan öz üzərinə bir sıra öhdəliklər götürmüşdür ki, bunlardan biri də insan hüquqları üzrə müvəkkil haqqında qanunun qəbul olunması idi. Bu demokratik təsisatın yaradılması ümummilli lider Heydər Əliyevin 22 fevral 1998-ci il Fərmanında önəmli vəzifə kimi müəyyən edilmişdir.

2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edildi, 2002-ci il martın 5-də isə ölkə başçısı tərəfindən bu qanunun tətbiq edilməsi haqqında fərman imzalandı, bununla da təsisatın yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi baza yaradıldı.

Qanunda İnsan Hüquqları üzrə Müvəkkilin fəaliyyətinin əsasları müəyyən edildi. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında" Konstitusiya Qanununun müəyyən etdiyi mandata uyğun olaraq onun fəaliyyətinin əsaslarını açıqlayan birinci maddəsində göstərilir ki, müvəkkil vəzifəsi Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.

Qanunda Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Müvəkkilin səlahiyyətlərinə Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması aid deyil.

İlk Ombudsman 2002-ci il iyulun 2-də Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Prezidentinin təqdim etdiyi üç namizəd arasından 111 səslə seçildi. Müvəkkilin seçilməsindən üç ay sonra 2002-ci il oktyabrın 28-də artıq Ombudsman Aparatında ərizəçilərin qəbuluna və şikayətlərin araşdırılmasına başlanıldı. Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edildi. Azərbaycan Respublikasının Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş vətəndaş və siyasi hüquq və azadlıqların müdafiəsi, bu sahədə pozulan hüquqların bərpası Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərini təşkil edir. Ombudsman öz fəaliyyətində respublikamızın tərəfdar çıxdığı bir çox beynəlxalq sənədləri realizə edir. Belə beynəlxalq hüquqi aktlar arasında "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını, "İşgəncələrin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza növlərinin qarşısının alınması üzrə Avropa Konvensiyası"nı, "Avropa Penitensiar Qaydaları"nı və digər sənədləri qeyd etmək olar.

Ombudsman postuna namizədləri Azərbaycan Respublikasının Prezidenti təqdim edir. Milli Məclis yalnız Prezident tərəfindən təqdim olunmuş üç namizəddən birini seçmək səlahiyyətinə malikdir. Milli Məclis Prezidentin təqdim etdiyi namizədlərin heç birinə səs verməyə bilər. Belə halda həmin prosedur yenidən keçirilir, 15 gün müddətində Prezident digər üç namizədi Milli Məclisə təqdim edir. Təqdim olunan üç namizəd arasından Müvəkkil 83 səs çoxluğu ilə seçilir.

Ombudsman vəzifəyə seçildiyi gün Milli Məclisin iclasında həmin vəzifədə səlahiyyətlərini şərəf və ləyaqətlə yerinə yetirəcəyinə, Konstitusiyaya və qanunlara əməl edəcəyinə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyinə and içir. Müvəkkilin səlahiyyət müddəti qanunla 7 ildir və həmin vəzifəyə eyni şəxs yalnız bir dəfə seçilə bilər.

İllik məruzələrdə Azərbaycanda insan hüquqlarının müdafiəsi, bu sahədə həyata keçirilmiş hüquqi islahatlar, Ombudsman təsisatının dövlətdəki rolu, müvəkkilin insan hüquqlarının bərpası üzrə fəaliyyətinin nəticələri, o cümlədən əhalinin ayrı-ayrı kateqoriyalarının, əsasən də ahılların, uşaqların, qadınların, qaçqın və məcburi köçkünlərin, məhbusların, hərbi qulluqçuların hüquqlarının müdafiəsi məsələləri qeyd olunub. Həmçinin müvəkkilin insan hüquqları sahəsində dövlət orqanları ilə əməkdaşlığı, əhalinin hüquqi maarifləndirilməsi, ölkədə insan hüquqlarına hörmət mühitinin yaradılması, habelə insan hüquqlarının təmin edilməsi sahəsində mövcud çətinliklər və əhalinin müvafiq qruplarının bir sıra sosial problemlərinin həll edilməsi üzrə müvəkkilin ümumiləşdirilmiş təklifləri öz əksini tapıb.

Şəffaflıq, ədalət və qərəzsizlik prinsipləri əsasında fəaliyyət göstərən Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə də baxır.

Şikayəti hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları verə bilər. Hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda, yəni həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və ya qanunvericiliklə müəyyən edilmiş digər hallarda şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq almadan da verə bilərlər.

Qeyd edilənlərlə yanaşı, hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkilin öz təşəbbüsü ilə araşdırma aparmaq səlahiyyəti də vardır.

İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı Müvəkkil istənilən vaxt maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, habelə polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq hüququna malikdir.

Bayram SALMANOV,
"Respublika".